# İki yaşlı şəhid Zəhra balaya layla-elegiya

## *Süd qoxulu nəvəni və dili laylalı nənəni dünyadan aparan mərmilər Qarabağa Qayıdışa – Cocuq Mərcanlıya köçə atılan yağı atəşi idi*



***Ulu Qorqudun zaman keçdikcə çəkisini və önəmini artıran deyimi yenidən günün ekran boyu gözümüzə sancılan titrinə çevrildi: “Qarı düşmən dost olmaz...” Sonda “nöqtə”ni “üç nöqtə” ilə bu müqəddəs xəbərdarlığın kəsilməzliyi arzusu ilə mən əvəz etdim. Hardan gündəmə gəldi 4 sözü, 19 hərfi qızıla tutulub Azərbaycan evinin girişinə asılmalı olan bu ulu xatırlatması, ustad öyüdü?!***

Xalqımızı tarixin öldü-qaldı sınaqlarından çıxarıb bugünə çatdıran milli mənlik duyğumuza, eləcə də bəşəri bir anlayışa– körpəliyindən-qocalığından asılı olmayaraq bütün dinc, günahsız insanların yaşamaq haqqına dəyən namərd gülləsi bugünlərdə qəribə bir qanunauyğunluqla dünyanın hər yerində yenidən ayıq vicdanlarda əks-səda verdi.

Üç on ildən bəri çağdaş dünyanın “Nifaq alması”na, “Qordi düyü”nünə dönmüş Dağlıq (zəhrimara qalmış bu “Dağlıq” sözünü bir kənara atdığımız günü görsəydik!) Qarabağ münaqişənin 3 onillikdən bəri davam edən bədnam tarixçəsində insanların Yaradan tərəfindən verilmiş yaşamaq haqqına qənim kəsilmiş, öldürücü bir siyasi epidemiyanın cənginə düşmüş erməni toplumu öz xislətini yenidən dünya gündəminə təqdim etməkdən çəkinmədi. Erməni faşizminin quduz dişinə çevrilmiş silahlı quldurlar iriçaplı silahlarla Füzuli rayonunun qoşunların təmas xəttindən kənardakı Alxanlı kəndini mərmi atəşinə tutdular, törətdikləri qanlı faciə və dağıntılarla öz xalqının adına dünyanın hər yerində ağrı və qəzəblə qarşılanan bir nifrət aktı yazdılar.

Bu atəş 2 yaşı hələ tamam olmamış Zəhra balaya layla deyən Sahibə nənənin nəvə oxşamasına dəydi. Yarımçıq qalmış bir nənə laylası dalğa kimi yayılıb bütün namuslu insanların qulaqlarında könüldağlayan ağıya döndü. Nə idi Günəşin batar çağı nəvəsini əzizləyən nənənin və onun şirin-şəkər laylasında uyuyan nəvənin təqsiri? Nə idi bu namərd gülləbaranı ilə bir anın içindəcə anasını və balasını itirən gənc bir ananın günahı? Bugünlərdə bu misilsiz qəddarlıqdan sarsılan, qarsalanan milyonlarla insan bu sualları dünya boyu səsləndirməklə ermənilərin növbəti vandallıq aktını kəskin ittiham edir.



Düşmənin ali rəhbərliyindən gələn o axşamkı atəş əmri səhərisi gün Cəbrayıl rayonunun yaxınlığındakı Cocuq Mərcanlı kəndinin 24 ildən bəri perik düşmüş öz övladlarını qoynuna alacağından yaranan namərdlik əndişəsi ilə verilmişdi. Düşmən Azərbaycanda ümumxalq təntənəsinə, qalibiyyət timsalına, zəfər müjdəsinə çevrilən bu böyük Qayıdışın ilk addımını yasa çevirməklə özünə təsəlli verməyə çalışdı. Bu naqafil atəş xalqımızın və bütün ləyaqətli insanların qəlbinin başına dəysə də, bundan artığı namərdliyə qarşı yeni qəzəb, hiddət partlayışı yaratması oldu. Bu atəşin qəlpələri günahsız nənəni və nəvəni al qana bələyib həyatdan aparsa da, onun daha böyük qəlpələri geri qayıdıb erməni toplumu liderlərinin, başbilənlərinin və silahlı quldurlarının başına yağdı...

**Acı, sarsıdıcı xəbərin yayıldığı günün gecəsi mənasını indiyədək aramağa çalışdığım bir yuxu gördüm.** Qəfil açılan bir mənzərədə eynilə Zəhra yaşında, Zəhra görkəmində bir körpə yıxıla-dura bulanıq bir kanala yuvarlandı. Dibigörünməyən bu gur, dəmiraparan axar on-on beş metr aralıda dar bir körpüdən keçirdi. Yuxumda fikrimdən keçən ilk qərar o oldu ki, körpünün qabağına atılıb uşağı bu axının cəngindən qurtarım. Özümü suya vurmağımla kanal bir andaca duruldu, axarın dibindəki körpə düz qucağıma gəlib sığındı. Sonsuz bir xoşbəxtlik duyğusu ilə uşağı sudan çıxarıb naləsi yeri-göyü titrədən ananın əllərinə verdim... Redaksiyanın tapşırığını yerinə yetirməyə getdiyim bir vaxtda üst-başımın islandığını düşünürkən baxıb gördüm ki, nə mən, nə də uşaq bir damla da olsun islanmamışıq...

Su aydınlıqdır, – deyiblər. Bulanıq bir axarın ölüm kabusu ikən qəfil durulmağının, qurbanlıq bir körpənin asanlıqla xilas olmağının ilkin yozumu yalnız xeyrədir. Yəni düşmən sularımızı nə qədər bulandırsa da, Haqdan durulacaq. Yağı kökümüzü kəsməyin qəsdində ikən soyumuz-nəslimiz xilas olub yurdumuza, itirdiklərimizə sahib çıxacaq. Marıqda yatmış, quduz, qəfilcil yağının qəsdindən körpə Zəhra və Sahibə nənə kimi soydaşlarımızı xilas etmək heç də həmişə mümkün olmur. Amma burası danılmazdır ki, ötən ilin aprelində ordumuzun güclü zərbəsindən yelqovana dönmüş düşmənin bu gün gücü yalnız nəvəsinə layla deyən dinc nənəyə çatır. Haqq savaşımızın izi ilə böyük bir elin öz sönmüş ocağını yandırmağa qayıtmasının qarşısını bu quduzluq və acizliklə almaq olarmı? İllər keçəndən sonra dünya, deyəsən, bu gerçəyi anlamaq və dəyərləndirmək həddinə gəlib çatıb.

**Zəhranın mediada, sosial şəbəkələrdə ildırım sürəti ilə yayımlanmış şəhid görüntüsünə sarsıntısız baxmaq mümkündürmü?** Laylası ağıya dönmüş bu mələkxislət körpənin qana bələnmiş çöhrəsi, deyəsən, nəhayət, özümüzdə də, dünya çevrəsində də yatmış vicdanları oyadan zəng kimi səsləndi...

Uzaq Amerikanın Arizona Ştatı Nümayəndələr Palatasının üzvü Donald Şüter bu qəddarlıq aksiyasının başında dayanan Ermənistan prezidenti Sərkisyana göndərdiyi etiraz məktubunda günahsız nənə və nəvənin ermənilərin işğalçılıq siyasətinin növbəti qurbanları olmasını Xocalı qətliamının davamı kimi qiymətləndirdi. Türkiyə qəzetçiləri erməni qaniçənlərini “İŞİD”çilərlə eyni gözdə gördülər. Almaniyalı deputat Katrin Albsteiger mülki əhalinin zorakı toqquşmaların qurbanı olmasını kəskin pislədi, yurdundan qovulmuş azərbaycanlıların öz evinə qayıtması hüququnu alqışladı.

Böyük britaniyalı deputat Bob Bləkmən öz bəyanatında bildirdi ki, “İki insanın ölümü ilə nəticələnən dinc sakinlərin qəsdən hədəfə alınması mənfur hərəkətdir.” Rusiya Siyasi Tədqiqatlar İnstitutunun direktoru, politoloq Sergey Markov bu neofaşist əməli insanlığa qarşı yönəldilmiş cinayət kimi səciyyələndirərək bildirdi: “İkiyaşlı körpənin öldürülməsinə, bu vəhşiliyin törədilməsinə dünya ictimaiyyəti barışmaz münasibətini bildirməlidir”. Bu sayaq bəyanatlar, ittihamlar, xəbərdarlıqlar seli dünya mediasının gündəmindədir...

Zəhra balamıza çalınan nənə laylası fələyin üzüdönüklüyündən bir anın içindəcə xalqımızın bir ağızdan, bir nisgildən gələn ağısıyla əvəz olundu:

***Laylan döndü ağın oldu,***
***Qarı düşmən yağın oldu.***
***Nağıl payın yetişməmiş***
***Zəhra, ömrün nağıl oldu.***

Müqəddəs Qarabağ savaşında Babək, Koroğlu qeyrəti, Nigar, Həcər dəyanəti şəhid soydaşlarımızın sırasında daha bir yurdsevər nənəni, insanlığın sabahı olacaq bir südəmər körpəni itirdik. Nədən ki, qarı düşməni tarix boyu ha illah eləsək də dosta çevirə bilmədiyimiz kimi, hələ zəhər dişini çıxarmağa da imkan vermirlər. İndilikdə isə bir daha əmin oluruq ki dədələr öyüdü bizim ən mötəbər qoruyucumuzdur: “Qarı düşmən dost olmaz!”

**Sahibə nənə pisli-yaxşılı bir ömür yaşamışdı, oğul-uşaq, hətta nəvə də görmüşdü.** Bu şəhid nənə düşmənin beşaddımlığında axşam-səhər eləməkdən qorxmadığı kimi, yeri gəlsə, hünəri dastan olmuş nənələrimiz kimi əlinə silah alıb düşmən qabağına çıxmağa da hazır idi. Elə buradaca sual-suala calanır: Bəs dodaqları süd qoxulu Zəhranın günahı nə idi? Bəlkə, dinc ailələrimizin cəbhə xəttində yaşamasına imkan verməməli idik? Məgər balayanların hər bir körpəmizin ətindən tikələr kəsib kabab eləməyə təşnə olması, sarkisyanların verdikləri atəş əmrinin cəbhə xəttində yaşayan dinc əhalini uşaqlı-qadınlı-qocalı məhv edəcəyini bilməyimiz qorxuda bilərdimi? Neçə-neçə Zəhranın qurban getməsi ehtimalı bizi Qarabağ savaşından zərrə qədər çəkindirə bilərmi? Belə sualların bir qəti cavabı var: Biz Zəhra balaların günahsız şəhadətinə müqəddəs bir layla çaldığımız kimi, “Qalx ayağa, Azərbaycan!” çağırışından da tufanlaşan, vulkanlaşan bir xalqıq.

Baş verənlər xalqımızın Qarabağ savaşına zəncirvari reaksiya kimi güc verən qeyrətimizin nüvə reaktorunu bir az da körüklədi. Zəhraların günahsız şəhadəti Haqq savaşımıza yeni bir ayıqlıq, səfərbərlik gətirdi. İnamımız, imanımız həmişə olduğu kimi, bu gün də odur ki, şəhid olmuş bir Zəhranın yerində min-min Zəhralar doğulacaq. Zəhra balamıza ana, nənə laylasında uyumaq sonadək qismət olmadı. Nənəsi qarı düşmənin kimliyini və kinliliyini anladan nağıl payını Zəhraya o dünyada danışmalı oldu... Anası Zəhranın saçlarına əlvan lentlər bağlayıb məktəbə yola sala bilmədi. Zəhraya ərganlıq yaşına çatmaq, sevib-sevilmək, gəlinlik paltarı geymək də nəsib olmadı... Neyləyək ki, millət Dədəsi Qorqud haqlı imiş: “Qarı düşmən dost olmaz!”

İndi şəhid balamız Zəhranın ayaq tutub yeriməmiş qırılan ömrünü nağıllaşdırıb-dastanlaşdırmaqla davam etdirməyimizə, onun boş qalmış beşiyinin yerində yeni doğulmuş Zəhralara layla çalmağımıza heç kəs, heç nə əngəl ola bilməz. Zəhranı qanına bələyən kinli yağı mərmisi Qarabağa-- Cocuq Mərcanlıya qayıdışa atılan atəş idi. Bu həm də millətin zəfərinə, qələbəsinə tuşlanan zəhərli bir güllə idi. Belə güllələr yeni qurbanları nə qədər artırsa da, xalqımızın qələbə, yurda qayıdış əzmini zərrə qədər azalda bilməyəcək.

**Təsadüfmü, zərurətmi, Zəhra şəhid olan günün səhərisi Bakıya yeniyetmə yaşlarında gəlmiş cocuqmərcanlılı tanışım, sadə peşə adamı Elnur İsmayılov zəng vurdu.** Elnur dedi ki, indi yoldadır, ailəsi ilə birgə doğma kəndə-- 16 yaşından perik düşdüyü Cocuq Mərcanlıya köçür. Düşmənin təxribatı, füzulili nənə və nəvənin şəhid olmağı onları hədsiz kədərləndirsə də, doğma yurda qayıdışlarının yolunu heç nə kəsə bilməz. Onlar bu qayıdış gününü 24 ildir ki, həsrətlə gözləyiblər. O ki qaldı Zəhranın şəhid olmağına, Elnur bildirdi ki, Cocuq Mərcanlıda doğulacaq ilk qız uşağına Zəhra adı verəcəyik. İstərdik ki, Zəhranın şəhid olduğu Alxanlı kəndində, ölkəmizin hər yerində Zəhra adı veriləcək qızlar da qəmli taleyi bu günlərdə adi insanlardan tutmuş dövlət başçılarına qədər çoxlarını kədərləndirən şəhid qızcığazın adını yaşatsınlar.

Elnurun dedikləri düşmənin bəd niyyətlərini gözündə qoymaq üçün insanda başqa təkliflər də doğurur. Elə bu yerdə düşünürsən ki, müdafiə sənayemiz yeni sillahlarından birinə, düşmənin acığına, Zəhraların və nənələrinin qisasını almaq naminə niyə “Zəhra” adı qoymasın? Niyə şairlərimizdən kimsə bu qanlı tarixçəni təsirli bir poema ilə ədəbiyyatımızın Qarabağ savaşı səhifəsinə həkk etməsin? Məktəblilərin “Yurdu tanıyaq” turaksiyasının marşrutuna Zəhranın uyuduğu məkanı salmaq da düşmənə nifrətimizi tətikdə saxlayan kəsərli bir vasitə olardı. Rəssamlarımız, heykəltəraşlarımız da Zəhranın faciəsini təsirli görüntülərə çevirə bilərlər...

**Xalqımız aydın və kəsərli deyib: it hürər, karvan keçər.** Baş verən son faciə nə qədər kədərli və düşündürücüdürsə, bir o qədər də nikbinliyə üfüq açır. Qarı düşmən bu əməli ilə, üstümüzə növbəti bir quduz caynaq atmağı ilə özünü dünya qarşısında yenidən rüsvay etdiyini anlamır. Quduzlaşmış canlılar belədir: beyinləri pozulduğundan odda yanmaqlarının, suda boğulmaqlarını, axırda başlarına güllə çaxılacağının fərqində olmurlar.

Yağının dilindən düşməyən saxta, əsassız “haqq davası” məgər özgə torpaqlarını cəhənnəmə çevirmək, körpələri, qocaları, qadınları iriçaplı silahlarla kütləvi surətdə məhv etməkdirmi? Bu sualın cavabını axtaranda bədnam “Xocalı soyqırımı” serialına yeni epizodlar əlavə edən qarı düşmən törəməsi Serj Sarkisyanın sifətində Zəhranın körpə sifətində donub qalmış qan ləkəsi boyda bəşəri bir tüpürcək görünür.

Çox şübhəsiz, xalqımızın və Alxanlıların şəhid nənə-nəvəyə yas tutduğu 40 gündə ölkəmizdə yeni doğulacaq bir çox qıza Zəhra adı qoyulacaq. Bu aksiya böyüyəndə onların hər birinə həm də adlarını daşıdıqları Zəhranın yarımçıq ömrünün davamçıları olduqlarını xatırladacaq. Bu yaddaş bizi həmişə “Qarı düşmən dost olmaz!” həqiqətini unutmamağa səsləyəcək.

***Tahir AYDINOĞLU,***
***“Xalq qəzeti”***